**PANDEMİYA DÖNƏMİNDƏ DÜNYA ÖLKƏLƏRİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞA DÖVLƏT DƏSTƏYİ**

*Ceyhun Heydərov*

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 1 | Giriş | 2 |
| 2 | Pandemiyanın KOS-lara təsiri | 3 |
| 3 | Pandemiyanın KOS-lara təsirini araşdıran sorğular | 4 |
| 4 | KOS-lar və pandemiyadan ən çox təsirlənən sektorlar | 4 |
| 5 | KOS-lar və risk altında olan iş yerləri | 5 |
| 6 | KOS-lar və ixtisarlar | 6 |
| 7 | Startaplar | 6 |
| 8 | Müflisləşmələr | 7 |
| 9 | Bərpa prosesi | 7 |
| 10 | Dünya ölkələrində KOS-lara dəstək siyasəti | 8 |
| 11 | Türkiyə | 9 |
| 12 | Amerika Birləşmiş Ştatlari | 12 |
| 13 | Almaniya | 14 |
| 14 | Fransa | 16 |
| 15 | Birləşmiş Krallıq | 19 |
| 16 | Rusiya | 22 |
| 17 | Ukrayna | 23 |
| 18 | Polşa | 24 |
| 19 | Pandemiya dövründə Şərq Tərəfdaşlığı Ölkələrində kiçik və orta sahibkarlığa dəstək | 26 |
| 20 | Belarus | 26 |
| 21 | Gürcüstan | 27 |
| 22 | Moldova | 28 |

# GİRİŞ

Bu Siyasət Sənədində dünya ölkələrində kiçik və orta sahibkarlığın mövcud COVİD-19 pandemiyasından necə zərər gördüyünə diqqət yetirilir, dünya ölkələrində KOS-ların dayanıqlığının artırılması üçün hökumətlərin həyata keçirdiyi dövlət dəstəyi proqramları tədqiq edilir və Azərbaycan hökuməti üçün aydın tövsiyələr ortaya qoyulur.

Koronavirus pandemiyası qlobal miqyasda çox saylı insan ölümlərinə, o cümlədən dərin iqtisadi böhranlara səbəb olmuşdur. Bu da öz növbəsində, pandemiyadan zərər görmüş ölkələrdə istehsalın dayanması, istehlakın azalması, bir sıra sektorların və şirkətlərin iflasa uğraması, investisiya mühitinin pisləşməsi və artan qeyri-müəyyənliklərə birjaların mənfi reaksiya verməsi kimi bir sıra arzuolunmaz nəticələrə gətirib çıxarmışdır. Pandemiyanın iqtisadi təsirlərini proqnozlaşdırmaq çətin olsa da, dünya ölkələrində qlobal tənəzzülün müşahidə olunacağı danılmaz faktdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) ən son proqnozu (27 Mart tarixli), karantin rejimlərinin tətbiqi ilə, bir çox ölkə iqtisadiyyatında istehlak xərclərinin üçdə bir, istehsal həcminin isə beşdə bir ilə dörddəbir arasında azalacağı yönündədir. Karantin rejimlərinin tətbiq edildiyi hər ay üçün ÜDM-in 2 faiz azalması proqnozlaşdırılır, bu azalma bir çox amillərdən, o cümlədən karantin rejimlərinin müddətindən və miqyasından, iqtisadiyyatın müxtəlif sahələrində mal və xidmətlərə tələbin azalmasından, maliyyə və pul siyasətinin təsir gücündən asılı olacaq[1].

Son həftələrdə bir sıra beynəlxalq təşkilatlar koronavirus pandemiyasının iqtisadi təsir aspektləri ilə bağlı araşdırmalar aparmışlar. Məsələn, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD), Çində pandemiyanın ixracata 50 milyard ABŞ dolları[2] həcmində zərər vurduğunu qeyd edir. Beynəlxalq Əmək Təşkilatının proqnozlarına əsasən pandemiya nəticəsində 5,3 milyon (ən optimist ssenari) ilə 24.7 milyon (ən pessimist ssenari) insan işsiz qalacaq[3], bundan xüsusilə kiçik və orta müəssisələr zərər görəcək.

BVF, 2008-ci ildə baş verən qlobal maliyyə böhranı ilə müqayisədə pandemiyanın xidmət sektoruna zərərinin daha böyük olduğunu vurğulayır. BVF-nin 14 apreldə yayımladığı "Dünya iqtisadi icmalı"nda, 2020-ci ildə qlobal ÜDM-in 3% azalacağını,

---

[1] https://read.oecd-ilibrary.org/view/?ref=126_126496-evgsi2gmqj&title=Evaluating_the_initial_impact_of_COVID-19_containment_measures_on_economic_activity

[2] https://unctad.org/en/PublicationsLibrary/ditcinf2020d1.pdf?user=1653

[3] https://www.ilo.org/wcmsp5/groups/public/---dgreports/---dcomm/documents/briefingnote/wcms_738753.pdf

daha da aşağı düşmə riskinin olduğunu proqnozlaşdırır[4]. Bir sıra bank və institutlar da 2020-ci ildə ÜDM üçün mənfi tendensiya proqnozlaşdırmışlar[5].

## PANDEMİYANIN KOS-LARA TƏSİRİ

Koronavirus pandemiyasının iqtisadiyyata, xüsusən KOS-lara mənfi təsiri daha nəzərəçarpandır. Bu təsiri özünü həm tələb həm də təklifdə göstərir[6]. Şirkətlər iş təklifinin azalması ilə qarşılaşırlar, çünki işçilər xəstələnir və ya məktəblər bağlandığı və insanların hərəkəti məhdudlaşdırıldığı üçün uşaqlara və himayələrində olan digər şəxslərə qayğı göstərmək məcburiyyətində qalırlar. Tələb tərəfdən KOS-ların gəlirlərinin kəskin azalması onların fəaliyyət qabiliyyətinə ciddi təsir göstərir və/və ya likvidlik çatışmazlığına səbəb olur. Bundan əlavə, istehlakçılar da gəlirlərinin azalması və artan qeyri-müəyyənliklə qarşılaşırlar ki, bu da öz növbəsində xərcləri və istehlakı azaldır. Bu təsirlər işçilərin işdən ayrıldıqları və şirkətlərin maaşları verə bilmədikləri üçün daha da ağırlaşır. Bu durum turizm və nəqliyyat kimi bəzi sektorlara xüsusilə ağır zərbə vurur, eyni zamanda biznes və istehlakçı inamının azalmasına səbəb olur. Ümumiyyətlə, KOS-lar digər şirkətlərə nisbətən "sosial izolyasiyaya" ya daha həssasdırlar[7].

Pandemiya həm böyük, həm də kiçik firmalara təsir göstərmişdir. Bununla belə, KOS-lara təsir onların həssas və davamlılığının aşağı olması səbəbindən xüsusilə şiddətli olmuşdur.

Bütün İƏİT ölkələrində KOS-lar şirkətlərin və məşğulluğun böyük hissəsini təşkil edir. Ancaq pandemiyanın təsirini xüsusilə hiss edildiyi bəzi sektorlarda KOS-ların payı xüsusilə yüksəkdir. Məsələn, Şimali İtaliya kimi pandemiyadan ən çox zərər görmüş regionlarda KOS-ların iqtisadi əhəmiyyəti daha yüksəkdir. Eynilə, pandemiyadan daha

---

[4] https://www.imf.org/en/Publications/WEO/Issues/2020/04/14/weo-april-2020

[5] https://www.db.com/newsroom_news/2020/deutsche-bank-economists-forecast-severe- recession-due-to-covid-19-en-11507.htm; https://resources.oxfordeconomics.com/hubfs/WEP/WEPM%20March%202020.pdf; https://www.ifo.de/en/node/53898 ; https://www.goldmansachs.com/insights/pages/gs- research/us-daily-20-mar-2020/report.pdf

[6] https://blogs.imf.org/2020/03/09/limiting-the-economic-fallout-of-the-coronavirus-with-large-targeted-policies/?utm_medium=email&utm_source=govdelivery
https://nextcity.org/daily/entry/cities-starting-grapple-with-small-business-declines-due-to-virus-outbreak?utm_source=Next+City+Newsletter&utm_campaign=5d645c1081-EMAIL_CAMPAIGN_2019_02_21_05_47_COPY_01&utm_medium=email&utm_term=0_fcee5bf7a0-5d645c1081- 43981729

[7]

çox zərər görmüş turizm və nəqliyyat kimi sektorlarda da KOS-lar daha çox təmsil olunurlar.

Bundan əlavə, dəniz, avtomobil və ya hava nəqliyyatı ilə daşımalardakı maneələr KOS-lara mənfi təsir göstərir. Bəzi KOS-lar, biznes şəbəkələri ilə əlaqələrin və tədarük zəncirlərinin pozulmasına xüsusilə həssasdırlar. Uzun müddət ərzində, bir çox KOS-lar tədarük zəncirləri pozulduqdan və keçmiş biznes tərəfdaşlarını itirdikdən sonra köhnə şəbəkələrlə əlaqə qurmaqda çətinlik çəkəcəklər. KOS-lar da daxil olmaqla müəssisələr, məhsul və xidmətlərə qlobal tələbatın azalmasının mənfi təsirini müşahidə edəcəklər. Bu təsir xüsusilə turizm kimi spesifik sektorlarda, eyni zamanda məhdudlaşdırma tədbirlərinin tətbiq olunduğu yerli bazarlara xidmət göstərən KOS-lar arasında hiss olunacaq.

# PANDEMİYANIN KOS-LARA TƏSİRİNİ ARAŞDIRAN SORĞULAR

Bir neçəsi istisna olmaqla, COVİD-19 böhranının KOS-lara necə təsir etdiyinə dair bu günə qədər məhdud empirik sübutlar mövcuddur. Sorğuların ilk nəticələrinə görə, vəziyyətin qeyri-müəyyənliyi ilə əlaqədar kiçik bizneslər arasında ciddi narahatlıqlar yaşanır. COVİD-19-un dünya miqyasında KOS-lara təsirini araşdıran 40 KOS-la bağlı sorğunun[8] nəticələrinə görə, artıq KOS-ların yarıdan çoxu ciddi gəlir itkiləriylə üzləşirlər. Sorğuların nəticəsi göstərir ki, bir ay ərzində dövlət dəstəyi olmadığı təqdirdə, KOS-ların üçdə biri, üç ay ərzində isə, KOS-ların 50%-ə qədəri biznes fəaliyyətini dayandıracaq. KOS-ların bu narahatlığı ABŞ-da 5800-dən çox kiçik müəssisə arasında keçirilən sorğunun[9] nəticələrini təqdim edən son NBER sənədində də öz təsdiqini tapmışdır. Sorğu göstərir ki, sorğunu cavablandıran müəssisələrin 43%-i artıq müvəqqəti bağlanıb. Bu müddət ərzində müəssisələr orta hesabla işçilərinin sayını 40% həcmində azaltmışlar. Respondentlərin dörddə üçü qeyd etmişdir ki, ehtiyatlarında olan nağd pul onlara maksimum iki ay yetəcək.

## KOS-lar və pandemiyadan ən çox təsirlənən sektorlar

İƏİT təhlilinə əsasən, böhrandan xüsusilə aşağıdakı sektorlarda fəaliyyət göstərən KOS-lar təsirlənmişdir:

- nəqliyyat vasitələri istehsalı;

[8] http://www.oecd.org/coronavirus/policy-responses/coronavirus-covid-19-sme-policy-responses-04440101/
[9] https://www.nber.org/papers/w26989.pdf

- tikinti;
- topdan və pərakəndə ticarət;
- hava nəqliyyatı;
- yaşayış və qida xidmətləri;
- daşınmaz əmlak;
- xidmət sektoru və s.

Son İƏİT məlumatları[10] göstərir ki, ümumilikdə iqtisadiyyatda KOS-lar məşğulluğun 50%-dən çoxunu təşkil etsə də, İƏİT ölkələri arasında bu sektorlarda KOS-ların məşğulluqdakı payı  orta hesabla 75%, Yunanıstan və İtaliyada isə təxminən 90% təşkil edir. Bəzi İƏİT ölkələrində mikro müəssisələr pandemiyadan ən çox zərər çəkmiş sektorlarda təmsil olunurlar. İtaliya və Yunanıstanda ən çox zərər görmüş sektorlarda mikro sahibkarlıq subyektlərinin payı 60%-dir, halbuki onların ümumi məşğulluqdakı payları müvafiq olaraq 45% və 55% -dir.

**<u>KOS-lar və risk altında olan iş yerləri</u>**

Avropadakı pandemiyanın təsiri ilə bağlı son Mckinsey araşdırması, ən çox risk altında olan işləri araşdırmışdır və aşkar etmişdir ki, risk altında olan üç işdən ən azı ikisi KOS-lara aiddir və risk altında olan bütün işlərin 30 faizindən çoxu mikro müəssisələrə aiddir". BƏT-in COVİD-19 və iş dünyasına dair monitorinqi[11] göstərir ki, dünyada ən çox risk altında olan sektorlarda çalışanların çoxu 10-dan az işçisi olan firmalarda cəmləşmişdir, əksinə aşağı riskli sektorlarda isə çalışanların böyük əksəriyyəti isə 10-dan çox işçisi olan böyük firmalarda cəmləşmişdir. Məsələn, topdan və pərakəndə ticarət, motorlu nəqliyyat vasitələrinin və motosikletlərin təmiri kimi sektorlarda 10 nəfərdən az işçisi olan firmaların payı 70% təşkil edir, halbuki təhsil, kommunal xidmətlər və dövlət idarəetməsi kimi aşağı riskli sektorlarda bu pay nisbəti 20%-dən azdır. Alman tədqiqat institutu IFM böhranın KOS-lara təsirini qiymətləndirmək üçün iki ssenari hazırlamışdır.[12]

Sərt karantin tədbirlərinin 2-2,5 ayla məhdudlaşacağı bir ssenaridə, əksər KOS-lar üçün böhran onların bağlanması ilə nəticələnməyəcək, lakin, pərakəndə, mədəni və turizm sahələrinə təsir böyük ola bilər. Sərt karantin tədbirlərinin altı aydan çox davam edəcəyi

---

[10] OECD (2020) Kiçik, Orta, Həssas, bax: http://www.oecd.org/sdd/business-stats/statistical-insights-small-medium-and-vulnerable.htm

[11] https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/briefingnote/wcms_743146.pdf

[12] https://www.ifm-bonn.org/fileadmin/data/redaktion/ueber_uns/ifm-hintergrundinformationen/Hintergrundpapier-IfM-Bonn-Corona_Krise-26-03-2020.pdf

təqdirdə KOS-lar arasında, xüsusilə mikro müəssisələr arasında 850000 ilə 1.6 milyon arası şəxsin işsiz qalacağı gözlənilir.

**KOS-lar və ixtisarlar**

Fransız əmək bazarını araşdırdıqda, aprel ayının əvvəlindən etibarən firma ölçüsünə görə işçilərin ixtisar edilməsi ilə bağlı maraqlı məlumatlarla rastlaşırıq[13]. Məlumatlar göstərir ki, ixtisarların mütləq əksəriyyəti KOS-ların payına düşür (93%), baxmayaraq ki, Fransadakı məşğulluqdakı payları 63% təşkil edir. Təkcə mikro müəssisələrin ixtisarlardakı payı 42%, məşğulluqdakı payları isə 30% təşkil edir.

**Startaplar**

Startaplar üçün pandemiyanın mənfi təsiri daha nəzərəçarpandır[14]. Faktlar göstərir ki, startapların qurulmasında müşahidə olunan mənfi tendensiya hətta maliyyə böhranı dövründə olduğundan daha güclüdür. Məsələn, ABŞ-da mart ayının son həftəsindəki yeni iş müraciətləri barədə məlumatlar göstərir ki, müraciətlər bir il əvvəlki tarixdəki müraciətlərdən 40% azdır, bu Böyük Ressessiya dövründə olduğundan da böyük düşüşdür.[15]

ABŞ-ın Startap Kartoqrafiya Layihəsi[16] məlumatları, yeni bizneslərin qeydiyyatının əvvəlki il ilə müqayisədə 75%-dən çox aşağı düşdüyünü göstərir. Təhlillərə görə, bu düşüşü dövlət idarələrinin bağlanması ilə izah etmək olmaz.[17] Hollandiyada, startapların sayı, 2019-cu ilin aprelinə nisbətən 2020-ci ilin aprel ayında 34% azalıb, bu xüsusən özünü biznes xidmətləri və tikinti sahələrində göstərir.[18] Startapların fəaliyyətinin azalması investisiya qoyuluşunun azalması ilə də izah edilə bilər. Məsələn, Çində yeni şirkətlərə vençur kapital qoyuluşu 2019-cu ilin birinci rübü ilə müqayisədə 2020-ci ilin birinci rübündə 60% azalıb[19]. Kanadada aparılan son tədqiqatlar[20],

---

[13] https://dares.travail-emploi.gouv.fr/IMG/pdf/dares_tdb_hebdo_marche-travail_crise-sanitaire_01042020-2.pdf
[14] https://cepr.org/sites/default/files/news/CovidEconomics13.pdf
[15] https://voxeu.org/article/startup-employment-calculator-covid-19
[16] https://www.startupcartography.com/home
[17] https://www.forbes.com/sites/columbiabusinessschool/2020/04/24/new-business-needs-a-big-rescue-too/#1af3ed66309c
[18] https://www.kvk.nl/over-kvk/media-en-pers/nieuws-en-persberichten/april-34-minder-starters-13-minder-stoppers-en-36-meer-faillissementen/
[19] https://theconversation.com/chinese-start-ups-are-being-starved-of-venture-capital-with-worrying-omens-for-the-west-137104

kanadalıların əvvəlki illərlə müqayisədə 59% daha az biznesə başlamağa meyilli olduğunu göstərir.

## Müflisləşmələr

Dünya ölkələrində müflisləşmələr pandemiya nəticəsində artmaqdadır. Məsələn, Yaponiyada pandemiyanın təsirindən müflisləşmələr aprel ayında keçən ilin eyni dövrü ilə müqayisədə 15% artmışdır[21], bu artım xüsusilə turizm sektorundakı kiçik və orta müəssisələrdə özünü göstərmişdir.

Hollandiyada, ilk növbədə pərakəndə və turizm sahələri olmaqla müflisləşən şirkətlərin sayında 2020-ci ilin aprel ayında (2019-cu ilin aprel ayına nisbətən) 36% artım olmuşdur.[22] Amerika Müflisləşmə İnstitutu, 2020-ci ilin ilk rübündə 2019-cu ilin ilk rübü ilə müqayisədə 14% artım olduğunu bildirdi. İnstitut bu artımın davam edəcəyini gözləyir.[23] ABŞ-da KİV-lər cari ilin mart ayından may ayının ortaları arasında 100000 kiçik müəssisənin bağlandığı barədə məlumat vermişlər. Aparılan araşdırmaya görə 9 - 11 may tarixləri arasında kiçik bizneslərin 2%-nin bağlandığı bildirilir.[24]

## Bərpa Prosesi

Diqqət yetirilməli olan daha bir məqam,  böyük firmalarla müqayisədə KOS-lar üçün bərpa prosesinin necə olacağı ilə bağlıdır. Karantin tədbirlərinin hələ də davam etdiyi və ya tədricən aradan qaldırıldığı bir çox ölkə üçün bu suala cavab vermək hələ ki, tezdir. Ancaq Çindən gələn bəzi məlumatlar, KOS-ların daha böyük firmalara nisbətən daha yavaş bərpa olunduğunu göstərir. Məsələn, Çinin 28 Mart tarixinə olan məlumatlar göstərir ki, sənaye işçilərinin 89,9%-i işə qayıtmışdır.[25] Hətta Hubei əyalətində belə yenidən işə başlama nisbəti 95%-i keçib. Sənaye KOS-larına gəldikdə, bərpa nisbəti 76%-dir. O cümlədən, Çin Satınalma Menecerləri İndeksi (PMI) göstərir ki,

[20] https://www.newswire.ca/news-releases/business-post-covid-is-canada-headed-for-a-stall-in-startups-and-support--874370358.html
[21] https://english.kyodonews.net/news/2020/05/8361cbd2068e-coronavirus-linked-bankruptcies-rise-sharply-in-japan.html;https://www.nytimes.com/reuters/2020/05/13/world/asia/13reuters-health-coronavirus-japan-bankruptcy.html
[22] https://www.kvk.nl/over-kvk/media-en-pers/nieuws-en-persberichten/april-34-minder-starters-13-minder-stoppers-en-36-meer-faillissementen/
[23] https://www.abi.org/newsroom/press-releases/commercial-chapter-11-bankruptcies-increase-14-percent-in-the-first-quarter
[24] https://www.bignewsnetwork.com/news/265067584/coronavirus-ravages-america-small-businesses
[25] http://www.oecd.org/coronavirus/policy-responses/coronavirus-covid-19-sme-policy-responses-04440101/

böyük firmalar arasında bərpa kiçik və orta firmalara nisbətən daha sürətli olmuşdur. 11 may tarixinə qədər böyük sənaye müəssisələrinin yenidən bərpası nisbəti ölkə üzrə orta hesabla 99.1% -ə çatmışdır. Sənaye KOS-ları üçün, bu nisbət 15 aprelə qədər 84% təşkil etmişdir, burada 28 martda qeyd edilən 76%-lik bərpa nisbətindən əhəmiyyətli bir artım müşahidə edilmişdir.

# DÜNYA ÖLKƏLƏRİNDƏ KOS-LARA DƏSTƏK SİYASƏTİ

KOS-ların hazırda üzləşdiyi vəziyyəti nəzərə alaraq, dövlətlər onları dəstəkləmək üçün müxtəlif tədbirlər görməkdədirlər. Prioritet olaraq əhalinin sağlamlığının qorunması ilə yanaşı, həm də pandemiyanın iqtisadiyyata vurduğu zərərləri minimuma endirmək, ümumilikdə iqtisadiyyatı və biznesi xilas etmək dövlətlərin daimi diqqət mərkəzindədir və bu sahədə çox mühüm addımlar atılmaqdadır. Xüsusilə, bəzi ölkələr təcili olaraq bu çətin dövrdə KOS-ların dayanıqlığının təmin edilməsi təşəbbüslərinə güclü diqqət ayırır və müxtəlif tədbirlər görür. Bu siyasət müxtəlif formalarda təzahür edir. Bəzi ölkələr iqtisadiyyat və biznes mühitinə zərbəni azaltmaq potensialına malik daha ümumi siyasətlərə diqqət yetirmişlər. Məsələn, bir çox ölkədə Mərkəzi Banklar maliyyə şərtlərini yüngülləşdirməklə və kommersiya banklarına KOS-lara daha çox kredit verməyə imkan yaratmaqla biznesin dəstəklənməsinə cəhd edilmişdir. Buna misal olaraq ABŞ-ın Federal Ehtiyat Sistemi və Avropa Mərkəzi Bankı tərəfindən həyata keçirilən misli görülməmiş tədbirləri misal göstərmək olar.

**Bir çox ölkələr KOS-lara yönəlik müxtəlif siyasət tədbirləri tətbiq etmişlər:**

- Bir neçə ölkə iş vaxtının qısaldılması, müvəqqəti işdən azad edilmə və xəstələrə məzuniyyət verilməsi ilə əlaqədar tədbirlər tətbiq etdi, bunların bəziləri birbaşa KOS-lara yönəldildi. Eyni zamanda, hökumətlər şirkətlərdə məşğulluğu qorumaq üçün müvəqqəti işsiz qalan şəxslərə maaş və gəlir dəstəyi verirlər. Bir çox hallarda ölkələr özünüməşğulluğa yönəlmiş tədbirlər tətbiq etmişlər;
- Likvidlik səviyyəsini artırmaq üçün bir çox ölkələrdə vergi, sosial təminat ödənişləri, borc ödənişləri, icarə və kommunal ödənişlərin təxirə salınması ilə bağlı tədbirlər tətbiq edilmişdir. Bəzi hallarda vergi güzəşti və ya borcun qaytarılmasına moratorium tətbiq edilmişdir. Ayrıca, bəzi ölkələrdə, dövlət satınalmaları və gecikmiş ödəniş prosedurları ilə əlaqədar tədbirlər görülür;
- Bir sıra ölkələr kommersiya banklarına KOS-lara kreditləşməni genişləndirmək üçün kredit zəmanətləri təqdim etmiş, genişləndirmiş və ya sadələşdirmişlər;
- Bəzi hallarda ölkələr dövlət qurumları vasitəsi ilə KOS-lara birbaşa kredit

verməyə başlamışlar;

- Bir neçə ölkə şirkətlərin gəlir səviyyəsinin azalmasını nəzərə alaraq, KOS-lar və digər şirkətlərə qrant və subsidiyalar verir;
- Ölkələr getdikcə KOS-lara yeni iş metodları və rəqəmsal texnologiyaların mənimsənilməsi və onlara üstünlük verilməsi, habelə yeni bazar və satış kanallarının tapılması ilə bağlı onlara kömək edilməsi ilə məqsədilə yeni struktur siyasəti həyata keçirirlər. Bu siyasət məsafədən çalışma kimi qısamüddətli problem həll etmə məqsədi daşıyır, eyni zamanda KOS-ların dayanıqlığını daha struktur şəkildə gücləndirməyə və onların daha da böyüməsinə kömək edir.
- Bəzi ölkələr böhranın KOS-lara təsirini monitorinq etmək və KOS-ların idarə edilməsinin səmərəliliyini artırmaq məqsədilə xüsusi sxemlər tətbiq etmişlər.

# TÜRKİYƏ

Martın 16-da KİV, Türkiyənin şirkətlərə və kiçik müəssisələrə koronavirus infeksiyasının yayılmasının səbəb olduğu iqtisadi yavaşlamanın qarşısını almaq üçün bir sıra mümkün tədbirlərdən biri olaraq vergi güzəştini təklif etdiyini bildirdi.[26]

Martın 17-də Türkiyə Mərkəzi Bankı əsas faiz dərəcələrini 100 bənd səviyyəsinə endirdi.[27] Bank, eyni zamanda kommersiya banklarına ehtiyac duyduqları qədər likvidlik verəcəyini söylədi.

Martın 18-də Türkiyə koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə 15.3 milyard ABŞ dolları dəyərində 21 bənddən ibarət stimullaşdırıcı paket (İqtisadi Sabitlik Qalxanı) təqdim etdi. Paketə aşağıdakılar daxildir[28]:

1. Şirkətlər tərəfindən kredit ödənişlərinin üç aylıq təxirə salınması və pandemiyanın təsirinə məruz qalmış müəssisələrə əlavə maliyyə dəstəyi;
2. Yeni dövriyyə kapitalı kreditləri, mövcud məşğulluq səviyyələrini qorumaq şərtilə, bütün firmalara 25000 Türk lirəsi limiti, 36 aylıq ödəmə, 6 ay güzəşt

[26] https://www.reuters.com/article/health-coronavirus-turkey-economy-tax/turkey-mulling-tax-relief-among-possible-coronavirus-steps-sources-idUSI7N29L04S
[27] https://www.dailysabah.com/business/economy/turkish-central-bank-moves-early-with-100-basis-point-cut-amid-coronavirus
[28] https://www.middleeasteye.net/news/coronavirus-turkey-economy-15-billion-dollar-stimulus-package

müddəti və 7.5% faiz dərəcəsi daxilində təklif ediləcəkdir;

3. Üç ay ərzində daxili hava səyahətlərində ƏDV-nin 18 faizdən 1 faizə endirilməsi;
4. Noyabr ayına qədər yaşayış vergisi ləğv ediləcək;
5. Pərakəndə, dəmir və polad sənayesi, ticarət mərkəzləri, avtomobil, əyləncə və turizm sektorları, qida və içki müəssisələri, toxuculuq, eləcə də tədbirlərin təşkili sektorları üçün vergi və sosial təminat növləri üzrə ödənişlər altı ay müddətinə təxirə salınacaq;
6. Qlobal pandemiyadan təsirlənən idxalçılara maliyyə yardımı;
7. Kredit Zəmanət Fondunun limiti 25 milyard TL (3.85 milyard ABŞ dolları) səviyyəsindən 50 milyard TL (7.7 milyard ABŞ dolları) səviyyəsinə qədər artırılaraq, kiçik və orta müəssisələrə və likvidlik ehtiyacı olan şirkətlərə dəstək veriləcək. Məqsəd KOS-lar üçün əlverişli və sərfəli şərtlər daxilində sosial məqsədlər üçün kredit paketlərinin tətbiqini təşviq etməkdir;
8. "Sənətkarlıq və ticarət kredit kartı" 25000 Türk lirəsi limiti daxilində bütün sənətkarlara və kiçik ticarətçilərə təqdim ediləcək;
9. Hökumət həmçinin aprel, may və iyun aylarında defolt vəziyyətinə düşmüş firmaların kredit reyestrlərində “fors-major” qeydini təmin edəcəkdir;
10. Hökumət minimum əmək haqqı dəstəyini davam etdirəcək və uzaqdan işləməklə bağlı məsələləri tənzimləyən qanunvericiliyin daha effektiv olmasını təmin edəcəkdir;
11. Turizm sektorunda vergi noyabr ayına qədər tətbiq olunmayacaq. Aprel, may və iyun aylarında otellərlə bağlı ödənişlər altı aylıq müddətə təxirə salındı;
12. Pul vəsaitlərinin hərəkəti pisləşən şirkətlərin kredit borcu və faiz ödənişləri ən azı üç ay təxirə salınacaq, lazım olduqda əlavə maliyyə dəstəyi də veriləcəkdir.
13. İxracatın müvəqqəti yavaşlaması zamanı ixracatçılara inventar maliyyə dəstəyi veriləcək;
14. Hökumət, bu müddət ərzində işlərinə mənfi təsir göstərdiyini bildirən ticarət və sənətkarlar üçün üç dövlət bankına (Halkbank, Vakıfbank, Ziraatbank) əsas və

faiz ödənişlərini təxirə salacaq;

15. Hökumət qısa iş günü icazəsi tətbiq edəcək və bundan faydalanmaq üçün tələb olunan proseslər asanlaşdırılacaq və sürətləndiriləcək;
16. İşçilərin əmək haqqını ödəyən müəssisələrə iş yerlərini azaltmamaq şərti ilə, dövlət banklarından əlavə likvidlik verilir (növbəti 3 ay ərzində işçi heyəti üçün nəzərdə tutulmuş xərclər qədər);
17. Texnoparklarda fəaliyyət göstərən firmalar iki ay icarə haqqından azad ediləcək və tibb işçiləri üçün dezinfeksiyaedici maddələr, tibbi maskalar və digər qoruyucu materiallar istehsal edən firmalar 6 milyon TL qrant alacaq.

Bundan əlavə, KOS İnkişaf İdarəsi KOSGEB (Kiçik və Orta Müəssisələri İnkişaf etdirmə və Dəstəkləmə İdarəsi) tərəfindən aşağıdakı tədbirlər görülmüşdür:[29]

1. KOS-ların KOSGEB-ə olan ödəmələri 2021-ci il yanvarın 31-dək təxirə salınacaqdır; bu tarixdəki ilk ödənişdən başlayaraq, əvvəlki ödənişlər 3 ay fasilələrlə ödənilə bilər;
2. KOSGEB-nin layihə əsaslı dəstək proqramları və dəstəkləmə müddəti 2020-ci ilin martında başa çatacaq sahibkarlıq dəstəyindən faydalananlar, proqramın qiymətləndirmə komitəsindən heç bir qərara ehtiyac olmadan dörd ay əlavə vaxt tələb edə biləcəklər;
3. KOSGEB kredit dəstəyi paketi ilə kredit almış 136000 KOS üçün aprel, may və iyun aylarında ödəniləcək kredit ödənişləri üç ay təxirə salındı. KOS-lar təxirə salınmanın əvəzində heç bir xərc ödəməyəcəklər. KOSGEB, təxirə salınmadan yaranan maliyyələşdirmə xərclərini (713 milyard TL - 105 milyon ABŞ dolları) ödəyəcəkdir;
4. Elm və texnoloji tədqiqat şurası, TÜBİTAK, yeni növ koronavirusun diaqnozu və müalicəsində istifadə edilən qoruyucu məhsulların istehsalına yönəldilmiş layihələrə dəstək üçün xüsusi bir çağırış etdi;
5. Martın 22-də dövlət bankları Ziraat Bankası, Vakıfbank və Halkbank və üç özəl

[29] https://en.kosgeb.gov.tr/; https://www.aa.com.tr/en/economy/turkey-supports-smes-against-effects-of-covid-19/1778784

bank (İşbank, Akbank və QNB) məsələ ilə əlaqədar müəssisə və şəxslərə dəstək paketlərini elan etdilər. Bütün fərdi və korporativ müştərilərə 31 Mart tarixində ödəniləcək faiz və əsas ödənişləri təxirə salma icazəsi verilir. Dövlət bankı, ən zərər görən sektorlardan olan turizm kimi sektorlar üçün kreditlərin qaytarılması üçün 12 aya qədər əlavə vaxt və altı aylıq dönəmdə ödəmədən azad olunma şansı tanıdı.

Martın 31-də hökumət COVİD-19-dan təsirlənənlərə dəstək olmaq üçün ictimai yardımlar kampaniyasına başlamışdır.[30]

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

Federal hökumət tərəfindən ABŞ-dakı işəgötürənlər üçün ümumi sağlamlıq tövsiyələri yayımlandı[31].

Martın 3-də Federal Ehtiyat Sistemi faiz dərəcəsini yarım faiz bəndi aşağı saldı.[32]

15 Martda Federal Ehtiyat Sistemi (FES), faiz dərəcələrini daha 1 faiz azaldaraq 0-0.25%-ə endirdi. Federal Ehtiyat Sistemi, faiz nisbətlərini 150 bənd endirərək kommersiya banklarının mərkəzi bankın likvidliyindən yararlanmasını da asanlaşdırdı.[33]

Martın 6-da hökumət, sağlamlığın qorunmasına yönəlik 8.3 milyard ABŞ dolları həcmində paket ortaya qoydu. Kiçik Biznes Administrasiyası (SBA), 13 Martda kiçik sahibkarlıq subyektləri üçün 50 milyard ABŞ dolları kredit vermək niyyətində olduğunu açıqladı.[34] Aşağı faizli kreditlər vermək üçün Konqresdən 50 milyard ABŞ dollar (ÜDM-in təxminən 0,25%-i) tələb ediləcəkdir. Xəzinə, likvidliyin artırılması məqsədi ilə vergi ödəmələrini faiz və ya cərimə olmadan təxirə salacaq.[35]

---

[30] https://www.al-monitor.com/pulse/originals/2020/04/turkey-coronavirus-offers-money-companies-donations-for-poor.html
[31] https://www.cdc.gov/coronavirus/2019-ncov/specific-groups/guidance-business-response.html
[32] https://www.nytimes.com/2020/03/03/business/economy/fed-rate-cut.html
[33] https://www.washingtonpost.com/business/2020/03/15/federal-reserve-slashes-interest-rates-zero-part-wide-ranging-emergency-intervention/
[34] https://www.reuters.com/article/us-health-coronavirus-usa-taxes/u-s-will-loan-50-billion-to-small-businesses-defer-taxes-to-fight-coronavirus-trump-says-idUSKBN20Z0ES; https://www.cnbc.com/2020/03/12/panic-setting-in-among-small-business-owners-banking-expert-cautions.html
[35] https://www.federalreserve.gov/newsevents/pressreleases/monetary20200323b.htm

Martın 23-də, FES, işəgötürənlərə, istehlakçılara və müəssisələrə kredit axınını dəstəkləmək üçün 300 milyard ABŞ dolları həcmində əlavə tədbirlər paketini təqdim etdi.

Martın sonunda iqtisadi stimullaşdırmanın 2,2 trilyon ABŞ dollarlıq üçüncü paketi (CARES Aktı) təqdim edildi; bura vətəndaşlara birbaşa birdəfəlik ödəmələr, vergilərin azaldılması və hava nəqliyyatı sənayesi üçün nəzərdə 50 milyard ABŞ dolları daxildir.[36] Bütün növ bizneslər vergi azaldılması və təxirə salınmalarından 221 milyard ABŞ dolları qazanacaqlar. Bunlara, işlərin dayanması ilə bağlı verilən kreditlərdən faydalanmayan və məşğulluq səviyyəsini qorumağa razı olan pandemiyadan ciddi şəkildə zərər görmüş müəssisələr üçün vergi güzəştlərinin 50%-i daxildir. Müəssisələrin 2020-ci il üçün nəzərdə tutulmuş əmək haqqından vergi tutulmaları 2021 və 2022-ci ilə təxirə salındı. Müxtəlif aviasiya vergiləri 2020-nin qalan hissəsi üçün dayandırılır.

Kiçik müəssisələri dəstəkləmək üçün 349 milyard ABŞ dolları həcmində biznes krediti ayrılmışdır. (Ödənişlərin Qorunması Planı). Böhrandan öncəki məşğulluq səviyyəsini qoruduğu təqdirdə, kiçik müəssisələrin (500 nəfərdən az işçisi olan) əmək haqqı, icarə haqqı, mövcud öhdəliklər üzrə faizlər və kommunal xidmətlər üçün istifadə etdiyi bu kreditlər səkkiz həftəlik müddət üçün bağışlanacaqdır.

Aprelin 24-də Ödənişlərin Qorunması Planı üçün daha 310 milyard ABŞ dolları həcmində bir dəstək layihəsi imzalanmışdır. Dəstək layihəsinə Kiçik Biznes Administrasiyasının İqtisadi Böhran Kredit Proqramı[37] üçün əlavə 60 milyard ABŞ dolları da daxil edilmişdir.

30 Apreldə Federal Ehtiyat Sistemi, pandemiya nəticəsində zərər görmüş kiçik və orta sahibkarlığa 600 milyard ABŞ dollarına qədər kredit təmin etmək üçün nəzərdə tutulmuş kredit proqramının əhatə dairəsini genişləndirdiyini elan etdi.[38]

16 apreldə administrasiya, üç mərhələli bir yanaşma yolu ilə, karantin rejiminin aradan qaldırılmasına dair dövlətlər üçün təlimatlar hazırladı. Nyu Meksiko, Ohayo, Men, Masaçusets, Miçiqan, Nyu York, Oreqon, Viskonsin və Florida da daxil olmaqla ABŞ-ın

---

[36] https://www.investopedia.com/government-stimulus-efforts-to-fight-the-covid-19-crisis-4799723
[37] https://www.marketwatch.com/story/house-set-to-pass-bill-that-replenishes-coronavirus-aid-program-for-small-businesses-2020-04-23
[38] https://www.federalreserve.gov/newsevents/pressreleases/monetary20200430a.htm

bir çox ştatında kiçik biznes üçün dəstək tədbirlərinə start verildi. Bir çox ştat vergi güzəştlərini də bu dəstək tədbirlərinə daxil etmişlər.[39]

**Bir neçə şəhər də dəstək proqramlarını həyata keçirməyə başlamışdır[40]:**

- Nyu York şəhəri də KOS-lara yerli dəstək verdi, bu dəstəyə 100-dən az işçisi olan firmalar üçün 15 ildən 20 ilə qədər müddətə sıfır faizli kreditlər daxildir;
- San Fransisko da kiçik biznes üçün öz tədbirlər planını elan etdi. Ümumi daxilolmaları 10 milyon ABŞ dollarına qədər olan müəssisələr ilk rüblük biznes vergisini 30 aprelədək ödəməmək seçiminə sahib olacaqlar və ödəməni hər hansı faiz, ödəniş və ya cərimə olmadan 2021-ci ilin fevralınadək təxirə sala biləcəklər. Ayrıca, şəhər, restoran, bar, mağazalar, kiçik pərakəndə satış, mehmanxana və tur operatorları üçün vahid lisenziya ödənişinin toplanmasını üç ay müddətinə təxirə salacaq. Şəhər əlavə olaraq təsirə məruz qalan bizneslər üçün fond yaradacaq. Təcili xilasetmə tədbirlərinin bir hissəsi olaraq 100 biznes üçün ümumi məbləği 1 milyon ABŞ dollar olan qrantlar ayrılacaq (hər biri üçün 10000 ABŞ dolları məbləğində);
- Sietl vergilərini gec ödəyən müəssisələr üçün maliyyə cəzalarından imtina etdiyini açıqladı.
- Los Angeles Kiçik Biznes üçün Təcili Mikrokredit Proqramına başladı;
- Denver Kiçik Biznes Təcili Yardım Proqramı bizneslər üçün 7500 ABŞ dolları məbləğində dəstək təmin edir;
- Çikaqo Kiçik Biznesin Dayanıqlığı Fondu aşağı faiz dərəcələri ilə kreditlər təklif edir.

## ALMANİYA

Hökumət, KOS-lar üçün qısamüddətli likvidliyin artırılması məqsədilə dövriyyə kapitalı kreditləri ilə öz dəstəyini ortaya qoymuşdur.[41] İşsizliyin kəskin artmasının qarşısını almaq üçün qısamüddətli işlərin təşkilinə başlanıldı. Praktikada, firmalar, işçilərinin 10%-i işsiz qaldıqda maliyyə dəstəyi üçün müraciət edə bilərlər, əvvəllər bu

[39] https://www.avalara.com/us/en/blog/2020/03/coronavirus-tax-relief-roundup.html; https://www.forbes.com/sites/briannegarrett/2020/03/20/small-business-relief-tracker-funding-grants-and-resources-for-business-owners-grappling-with-coronavirus/#10de021fdd4c
[40] https://www.forbes.com/sites/advisor/2020/03/20/list-of-coronavirus-covid-19-small-business-relief-programs/#2bc2b9c0e89d
[41] https://www.bmwi.de/Redaktion/DE/Artikel/Wirtschaft/altmaier-zu-coronavirus-stehen-im-engen-kontakt-mit-der-wirtschaft.html

nisbət üçdə bir idi.[42] Martın 10-da federal kabinet, işçilərin ixtisarının qarşısını almaq üçün qısa müddətli iş müavinətlərini artırdı.

9 Martda hökumət, federal investisiyaların 2021 və 2024 illəri arasında 3.1 milyard avro artırılması və KOS-lar daxil olmaqla şirkətlər üçün likvidliyin yaxşılaşdırılması üçün geniş tədbirlərin görüləcəyini elan etdi.[43]

Martın 13-də pandemiyanın təsirinə məruz qalan firmaların likvidliyinə zəmanət verən kreditləri məhdudlaşdırılmadan təmin edəcək təkliflər paketi elan edildi:

- Likvidlik dəstəyi və hökumət tərəfindən alınan risklər artırılacaq. Zəmanət bankları tərəfindən verilən zəmanətlərin həcmi 2,5 milyard avroya qədər artırılacaqdır. Tədbirlər, bütün sektorlardakı bütün kommersiya kiçik və orta müəssisələri və peşələri əhatə edir və zəmanət bankları tərəfindən ən qısa müddətdə həyata keçiriləcəkdir.[44]
- Vergi təxirə salınması mümkün edildi və vergi ödəmələri 2020-ci ildə gözlənilən ən aşağı gəlir səviyyəsinə uyğunlaşdırılacaq. Müəssisə pandemiyaya məruz qaldığı təqdirdə, tətbiqetmə tədbirləri və cərimə ödənişləri 2020-ci ildə dayandırılacaq.

Martın 21-də hökumət KOS-lara dəstək, İqtisadiyyatın Sabitləşmə Fondu və Almaniya Dövlət Bankı vasitəsilə daha sonrakı dövlət zəmanətləri də daxil olmaqla fövqəladə bir büdcə üzərində işlədiyini elan etdi.[45] Martın 25-də ümumi dəyəri 750 milyard avrodan yuxarı olan dəstək paketi barədə razılıq əldə olundu. Bunun bir hissəsi olaraq, 23 Martda hökumət kiçik sahibkarlığa 50 milyard avro dəstək elan etdi.[46] Tədbirlərə, bütün sektorlarda fəaliyyət göstərən kiçik sahibkarlıq subyektləri üçün qrantlar daxildir:

- beş işçisi olan müəssisələr üçün üç ay ərzində 9000 avroya qədər birdəfəlik ödəmələr;
- 10 işçisi olan müəssisələr üçün üç ay ərzində 15000 avroya qədər birdəfəlik ödəmələr

Paketin daha bir hissəsi İqtisadiyyatın Sabitləşmə Fondunun yaradılmasıdır. Fond 600 milyard avro həcmindədir, buradan 400 milyar avro likvidlik zəmanəti üçün, 100

[42] https://www.ft.com/content/d46467da-61e1-11ea-b3f3-fe4680ea68b5
[43] https://www.bmwi.de/Redaktion/DE/Downloads/S-T/schutzschild-fuer-beschaeftigte-und-unternehmen.pdf?__blob=publicationFile&v=10
[44] https://vdb-info.de/aktuelles/pressemitteilungen/corona-krise-buergschaftsbanken-erweitern-unterstuetzung-von-kmu
[45] https://www.reuters.com/article/germany-debt/update-2-germany-prepares-150-bln-euro-emergency-budget-in-coronavirus-package-idUSL8N2BE0EV
[46] https://www.bmwi.de/Redaktion/EN/Pressemitteilungen/2020/20200323-50-german-government-announces-50-billion-euros-in-emergency-aid-for-small-businesses.html

milyard avro Almaniya iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən bizneslər üçün, 100 milyard avro isə Almaniya dövləti tərəfindən yenidən maliyyələşdirmə üçün nəzərdə tutulmuşdur.

Martın 27-də "Alman COVİD-19 Müflisləşmə Qanununa Düzəliş" qüvvəyə mindi. Bu düzəlişlə, müəyyən şərtlər yerinə yetirildiyi təqdirdə, hüquqi şəxsin müflisləşmə haqqında müraciət etmə öhdəliyi 30 sentyabr 2020-ci ilədək dayandırıldı.

Martın 31-də hökumət, startaplar üçün 2 milyard avro dəyərində vençur kapitalı dövlət dəstəyi Startap Fondunun yaradıldığını elan etdi (Startap Likvidlik Proqramı 2020).[47]

Proqram, startap və texnoloji yönümlü şirkətlərə yönəldilmişdir. 3 apreldə hökumət KOS-lara böhranın öhdəsindən gəlmək üçün həll yollarının tapılması məqsədilə məsləhət xidmətləri göstərilməsi üçün nəzərdə tutulmuş 4000 avroluq yardım elan etdi. [48]

## FRANSA

Fransa İqtisadiyyat və Maliyyə Nazirliyi 12 Martda koronavirus səbəbiylə ciddi çətinliklərlə qarşılaşan firmalar üçün tədbirlər planı elan etdi.[49] Bu tədbirlər planına daxildir:

- Firmalar və sahibkarlar üçün korporativ/gəlir vergisi və sosial ödənişlərin təxirə salınması və ayrı-ayrılıqda bu ödənişlərdən azad olunma imkanları;
- Dövlət İnvestisiya Bankı (Bpifrance) tərəfindən təklif olunan yeni kreditlər (dövlət investisiyası və mövcud kreditlər saxlanılır)[50];
- Hökumət müvəqqəti işdən çıxarılanlara 100% kompensasiya ödəyəcək;
- KOS-lar və müştərilər/təchizatçılar arasındakı münaqişələrdə mediasiya;
- Pul axını problemi olan mikro müəssisələrə dəstək olmaq üçün Həmrəylik Fondunun yaradılması;

[47] https://www.bmwi.de/Redaktion/EN/Pressemitteilungen/2020/20200401-customised-support-for-new-businesses-affected-by-the-coronavirus-crisis.html; https://www.bmwi.de/Redaktion/DE/Pressemitteilungen/2020/20200401-sart-ups-bekommen-2-milliarden-euro.html

[48] https://www.bmwi.de/Redaktion/EN/Pressemitteilungen/2020/20200403-up-to-euro-4000-for-consulting-costs-without-any-company-own-contribution-for-smes-and-members-of-the-liberal-professions-in-the-coronavirus-crisis.html

[49] https://www.economie.gouv.fr/files/files/PDF/2020/Coronavirus-MINEFI-10032020.PDF

[50] https://www.nytimes.com/reuters/2020/03/12/world/europe/12reuters-health-coronavirus-france-lemaire-aid.html; https://www.bpifrance.fr/A-la-une/Actualites/Coronavirus-Bpifrance-active-des-mesures-exceptionnelles-de-soutien-aux-entreprises-49113

- Hökümət müqavilələrində ödəniş gecikmələrinə görə cərimələrin dayandırılması.

Martın 17-də hökumət biznesə dəstək üçün 45 milyard avro dəyərində əlavə bir tədbirlər paketi elan etdi:[51]

- Hökumət şirkətlərə kreditlər üçün 300 milyard avro zəmanət verir;
- Kiçik şirkətlərin və dövriyyəsi 1 milyon avrodan az olan fərdi sahibkarların dövriyyəsi 70% və ya daha çox azaldığı təqdirdə, onlara aylıq 1500 avro məbləğində kompensasiya verilə bilər;
- Hökumət kiçik şirkətlər üçün kirayə, qaz və elektrik enerjisi haqqını ödəyəcək;
- Fərdi sahibkarlar üçün qurulmuş Həmrəylik Fonduna hökumət tərəfindən 2 milyard avro vəsait veriləcək.[52]

Hökumət bəyan etdi ki, heç bir sahibkarlıq subyekti likvidlik çatışmazlığından əziyyət çəkməyəcək.[53]

12 Mart tarixindən etibarən Bpifrance dəstəyini daha da artırdı:

- Qısamüddətli və orta müddətli kreditlər üçün 90% zəmanət (300 000 avrodan yuxarı);
- Dəstək qrupları, böhranı və xüsusən də pul vəziyyətini idarə etmək üçün 1500 startapa yardım göstərəcəkdir.

Martın 23-də Fransa Banklar Assosiasiyası, maliyyə böhranı ilə üzləşən fransız firmalarının pandemiya zamanı problemlərinin həllinə kömək etmək üçün, bir ildən sonra başlayan ödəmələrlə, üç aylıq aşağı faizli kreditlər (0.25%) əldə edə biləcəklərini açıqladı.[54]

Martın 25-də Fransa startaplar üçün 4 milyard avro dəyərində təcili plan hazırladı.[55] Bura aşağıdakı tədbirlər daxildir:

- Gələcəyə İnvestisiya Proqramı (PİA) tərəfindən maliyyələşdirilən və Bpifrance tərəfindən idarə olunan, startapları maliyyələşdirmək üçün 80 milyon avro dəyərində bir paket. Bu paket vəsait toplama prosesində olan və önümüzdəki aylarda vəsait toplaması gözlənilən və vençur kapitalı fəaliyyətinin daralması

---

[51] http://www.rfi.fr/en/france/20200318-france-promises-45-billion-euros-to-save-companies-hit-by-coronavirus-economy-nationalisation-lockdown-covid-19

[52] https://www.politico.eu/article/france-injects-billions-into-stimulus-plan-amid-coronavirus-chaos-bruno-le-maire-economic-catastrophe/

[53] https://www.marketwatch.com/story/france-promises-50-billion-in-aid-for-businesses-2020-03-17-34853812

[54] https://www.thelocal.fr/20200323/france-opens-emergency-loans-scheme-for-businesses-hit-by-coronavirus

[55] https://minefi.hosting.augure.com/Augure_Minefi/r/ContenuEnLigne/Download?id=A9CA5A5C-82E4-4AEB-8EC1-D8247C5C3465&filename=128%20-CP%20vanglaise%20-%20The%20Government%20announces%20c.%E2%82%AC4%20billion%20emergency%20plan.pdf

səbəbindən bunu edə bilməyən startaplar üçün nəzərdə tutulmuşdur. Bu maliyyələşdirmə, kapitala mümkün çıxışı olan istiqrazlarda təmin ediləcək və investorların bunun üçün ən azı 160 milyon avro ayıracağı nəzərdə tutulur.

- Fransa üçün 2019-cu ilin əmək haqqı fondunun iki qatına qədər və ya digər şirkətlər üçün illik gəlirin 25%-nə qədər dövlət tərəfindən zəmanətli kreditlər. Xüsusi maliyyə qanunu layihəsində qəbul edilən 300 milyard avro dövlət zəmanəti ilə bu kreditlər həm özəl banklar, həm də startapların əsas təmas nöqtəsi olan Bpifrance tərəfindən startaplara paylanılır. Bu dəstək cəmi 2 milyard avro dəyərində nəzərdə tutulur. Zəmanət, kreditin 90%-ni əhatə edə bilər və kreditin müddətindən asılı olaraq aşağı faizlə verilir.
- 2019-cu il üçün tədqiqat vergi krediti (CIR) daxil olmaqla korporativ vergi kreditlərinin dövlət tərəfindən qaytarılması. Bütün şirkətlərin korporativ vergilərin erkən qaytarılması üçün müraciət etmək imkanı vardır.
- 250 milyon avro məbləğində olan Gələcəyə İnvestisiya Proqramı (PİA) təcili innovasiya dəstəyinin verilməsi. Hökümətin tələbindən sonra, Bpifrance və Ademe, PİA tərəfindən innovasiya müsabiqələri kimi innovasiya dəstəyi qrantlarının verilməsini avtomatik olaraq sürətləndirir. Eyni zamanda, ödəniş avansları və ya qrantlar şəklində subsidiya alan şirkətlər üçün növbəti ödəmə müddəti altı aya qədər təxirə salınır.
- Nəhayət, dövlət Bpifrance vasitəsi ilə, inonovativ şirkətlərə təxminən 1,3 milyard avro dəyərində dəstək verir (qrantlar, avanslar, kreditlər və s.). Bpifrance, özəl investorlarla yanaşı, birbaşa kapital qoyuluşlarını və fondlara yatırımlarını davam etdirəcəkdir.

31 martda hökumət daha bir tədbirlər planı elan etdi[56]:

- Fərdi sahibkarlar və ən kiçik firmalara "Həmrəylik Fondu"na uyğunluq şərtlərini azaltmaqla və dövlət maliyyəsini 7 milyard avroya qədər artırmaqla dəstək verilməsi. Sığorta şirkətləri də fonda öz töhfələrini verəcəklər;
- Həyat əhəmiyyətli sektorlarda çalışan işçilər üçün vergi güzəştləri. Firmalar avqustun sonunadək işçilərə 1000 avro bonus ödəyə biləcəklər (firma səviyyəsində razılaşma olduqda 2000 avroya qədər);
- ixracatçı firmalara əlavə dəstək, o cümlədən: dövlət ixracat sığortasının daha yüksək əhatə dairəsi və zəmanətlər;
- firmalararası ödənişlər (kredit-sığorta) üçün 10 milyard avro məbləğində təkrar sığorta sistemi.

[56] https://minefi.hosting.augure.com/Augure_Minefi/r/ContenuEnLigne/Download?id=6CFBEAC6-BA80-4364-97A4-46B82488867C&filename=2101%20-%20discours%20Bruno%20LE%20MAIRE%20-%20Plan%20d%27urgence%20%C3%A9conomique.pdf

15 apreldə hökumət stimul paketinin həcmini 100 milyard avrodan 110 milyard avroya qədər genişləndirdi.[57]

Startapların böhrana qarşı mübarizədə rolunu artırmaq üçün La France Tech Toulouse kimi cəmiyyət təşəbbüsləri ortaya qoyuldu[58], Fransa Digital kimi sənaye birlikləri, böhran zamanı KOS-ları dəstəkləmək üçün səylərini artırdılar. Fransa sığortaçıları KOS-ları dəstəkləmək üçün 1 milyard avro həcmində tədbirlər elan etdilər.[59]

## BİRLƏŞMİŞ KRALLIQ

İlk addımlarında, İngiltərə hökuməti işəgötürənlər və sahibkarlar üçün sağlamlığın qorunması ilə əlaqəli ümumi bir bələdçi təqdim etdi.[60]

İngiltərə Bankı (BoE) martın 11-də faiz dərəcələrini 0,25% -ə endirdi.[61] Tədbirlərə, KOS-lar üçün müddətli maliyyələşdirmə imkanları, mərkəzi bank tərəfindən maliyyələşdirilən KOS-lar üçün 100 milyard funt sterlinq həcmində aşağı faizli biznes kreditlərinin verilməsi daxildir.[62] 11 Martda İngiltərə Hökuməti 30 milyard funt sterlinq həcmində təcili yardım stimullaşdırıcı paketini elan etdi, bunun 23%-i (7 milyard funt sterlinq) biznesə dəstək məqsədi daşıyır.[63] Paketin bir hissəsi olaraq:

- 250 nəfərdən az adamın işlədiyi müəssisələr, ilk iki həftədə işçilərə verdikləri xəstəliyə görə müavinətləri dövlətdən geri almaq hüququna malikdirlər.
- İngiltərə hökuməti, həmçinin koronavirusdan təsirlənmiş kiçik və orta sahibkarları fəaliyyətlərinin dayanması ilə əlaqədar olaraq, onlar üçün nəzərdə tutulmuş 1,2 milyon funt sterlinq həcmində kreditlərlə təmin etmişdir.

---

57 http://www.rfi.fr/en/france/20200415-french-government-boosts-covid-19-emergency-fund-to-110-billion-euros-health-workers-unemployed-coronavirus
58 https://www.lafrenchtechtoulouse.com/solutions-face-au-covid-19/
59 https://www.reuters.com/article/us-health-coronavirus-france-insurance/french-insurers-in-talks-to-jointly-invest-1-bln-euros-to-help-small-businesses-during-coronavirus-idUSKCN21S1UD
60 https://www.gov.uk/government/publications/guidance-to-employers-and-businesses-about-covid-19/guidance-for-employers-and-businesses-on-covid-19
61 https://www.theguardian.com/business/2020/mar/11/coronavirus-bank-of-england-makes-emergency-interest-rate-cut
62 https://www.theguardian.com/business/2020/mar/11/coronavirus-bank-of-england-makes-emergency-interest-rate-cut
63 https://www.businessinsider.fr/us/coronavirus-uk-chancellor-reveals-emergency-measures-for-economy-2020-3

11 Martda elan edildi ki, xəstəliyə görə müavinət almaq hüququ olmayan fərdi sahibkarlara və iqtisadiyyat sahəsində çalışanlara 2020 Büdcəsi çərçivəsində 500 milyon funt sterlinq dəyərində yardım veriləcəkdir.

Martın 17-də hökumət 330 milyard funt sterlinq həcmində biznes üçün xilasetmə paketini elan etdi.[64] Tədbirlərə aşağıdakılar daxildir:

- Böyük firmalar arasında likvidliyə dəstək;
- Pandemiyadan zərər görmüş bizneslərin ala biləcəkləri kredit həcminin 1.2 milyon funt sterlinqdən 5 milyon funt sterlinqə qədər artırılması və bu maliyyə dəstəyinin ilk altı ay üçün faizsiz olması;
- Bu dövrdə ən çox zərər görmüş firmalara pul axınlarını idarə etmək üçün 20 milyard funt sterlinq həcmində biznes dəstəyi və qrantların təmin edilməsi:
    - İngiltərədəki bütün pərakəndə, turzim və əyləncə sektorlarındakı müəssisələrə növbəti 12 ay üçün 100% vergi güzəştləri və tətillərinin verilməsi;
    - Kiçik sahibkarlara verilən qrantların 3000 funt sterlinqdən 10000 funt sterlinqə qədər artırılması;
    - Pərakəndə satış, turizm və əyləncə sektorlarındakı müəssisələrə 25000 funt sterlinqlik qrantın təqdim edilməsi.

Bundan əlavə[65]:

- Vergi ödəmələrini ödəyə bilməyən kiçik şirkətlər razılaşma üçün vaxt istəyə bilərlər. Təxirə salınmış vergi ödəmələri üzrə illik 3.5% faizdən imtina olunur;
- 2020-ci ilin ikinci rübündə ƏDV ödəmələri maliyyə ilinin sonuna qədər təxirə salınır. Bu büdcəyə 30 milyard funt sterlinqə və ya ÜDM-in 1,4%-nə başa gələcək;
- Hökumət Britaniya Biznes Bankı vasitəsilə pandemiyanın mənfi təsirinə məruz

[64] https://www.gov.uk/government/news/chancellor-announces-additional-support-to-protect-businesses; https://www.politico.eu/article/uk-sets-out-330-billion-coronavirus-business-loan-package/b
[65] https://sifted.eu/articles/coronavirus-support-startups/

qalan bizneslərə kreditlər ayıracaq;

- Kiçik şirkətlər hər bir işçi üçün ödədikləri xəstəliyə görə 14 günlük müavinət (200 funt sterlinqdən az) xərclərini geri ala biləcəklər;
- Kiçik şirkətlər 10000 funt sterlinq dəyərində qrant üçün müraciət edə bilərlər;
- İllik 330 milyard funt sterlinq zəmanətlə biznesi dəstəkləmək üçün kreditlər ayrılacaq.

Martın 23-də hökumət icarəçilərin qorunduğunu elan etdi.[66]

28 Martda hökumət şirkətlərin qorunmasını təmin etmək üçün müflisləşmə qanununa müvəqqəti dəyişikliklər etdi. 20 apreldə hökumət startaplar, texnoloji şirkətlər və digər innovativ firmalar üçün 1.25 milyard funt sterlinq dəstək paketi elan etdi.[67]

Mayın 4-də hökumət kiçik firmalar və fərdi sahibkarlar üçün kreditlərin qaytarılmasının yeni sxemini tətbiq etdi. Bu sxemə görə, firmalar 2,5% faizə qarşılıq 2000 ilə 50000 funt sterlinq arasında dövlət tərəfindən 100% təminat verilən kreditlər əldə edə bilərlər. İlk 12 ayda hökumət borcların ödənilməsini təmin edəcəkdir. Kreditlər üçün müraciət sadələşdirilir.[68]

13 May tarixindən etibarən fərdi sahibkarlar 7500 funt sterlinqlik qrantlar üçün müraciət edə bilərlər.[69]

İngiltərədə kiçik bizneslər koronavirusla mübarizə üçün 3000 funt sterlinq həcmində birdəfəlik qrant almaq hüququ qazanmışlar.[70]

17 Martda Uels, biznes üçün 1.4 milyard funt sterlinqlik dəstək planının[71] bir hissəsi olaraq, kiçik bizneslər üçün 200 milyon funt sterlinqlik dəstək proqramını[72] açıq elan

[66] https://www.gov.uk/government/news/extra-protection-for-businesses-with-ban-on-evictions-for-commercial-tenants-who-miss-rent-payments
[67] https://www.natlawreview.com/article/covid-19-temporary-relaxation-uk-insolvency-laws
[68] https://www.heraldscotland.com/news/18423972.coronavirus-government-bounce-back--loan-scheme-small-businesses-opened/
[69] https://www.reuters.com/article/us-health-coronavirus-britain-selfemploy/uk-opens-10-billion-pound-covid-19-aid-programme-for-self-employed-idUSKBN22O3DZ
[70] https://smallbusiness.co.uk/how-do-i-get-the-government-3000-coronavirus-grant-2549866/
[71] https://www.bbc.com/news/uk-wales-politics-51954135
[72] https://www.bbc.com/news/uk-wales-51916208

etdi. Şotlandiya hökuməti kiçik biznesin pandemiya nəticəsində yaranmış vəziyyətin öhdəsindən gələ bilməsi üçün yardımçı qaynar xətti işə saldı.

14 martda Şotlandiya hökuməti, biznes üçün 320 milyon funt sterlinq dəyərində bir xilasetmə paketi[73] elan etdi.

Martın 30-da Şotlandiya hökuməti biznes üçün 100 milyon funt sterlinq dəyərində əlavə dəstək tədbirləri elan etdi.[74]

# RUSİYA

Martın 17-də hökumət vətəndaşları və iqtisadiyyatı dəstəkləmək üçün karantin altındakı vətəndaşlara, o cümlədən frilanser və fərdi sahibkarlara itirilmiş gəlirləri kompensasiya etmək üçün 4 milyard ABŞ dolları məbləğində dəstək paketi elan etdi. Buraya daxildir[75]:

- KOS-ların martın 1-dən icbari sığorta haqlarından və əmlak üçün icarə ödənişlərindən azad edilməsi;
- KOS-ların vergi, gömrük və digər yoxlamaların aparılmasına dair moratoriumun tətbiq edilməsi;
- Hökumət KOS-lar üçün güzəştli kreditlər proqramını genişləndirmiş və mövcud kreditlər üzrə borcun yenidən hesablanmasına şans tanımışdır;
- Regional mikromaliyyə təşkilatlarına subsidiyalar artırılmışdır;
- KOS-lar hər bir işçi üçün 12130 rubl subsidiya əldə edirlər;
- Hökumət Rusiya vətəndaşlarını və Rusiya iqtisadiyyatını, o cümlədən frilanserləri və fərdi sahibkarları dəstəkləmək üçün 300 milyard rubl və ya ÜDM-in 1,2% -ni təşkil edən 4,05 milyard ABŞ dolları həcmində anti-böhran fondu yaratmışdır.

---

[73] https://smallbusiness.co.uk/scottish-government-launches-small-business-coronavirus-helpline-2549868/
[74] https://www.sundaypost.com/fp/self-employed-fund/
[75] http://government.ru/news/39161/

Martın 25-də hökumət bir sıra tədbirlərə başladı:

- Gəlirləri 30% -dən çox azalan şirkətlər üçün kredit və ipotekanın ödənilməsi tətili;
- Daha yüksək işsizlik müavinətləri;
- KOS-lar üçün vergi və sosial təminat ödənişlərinin təxirə salınması;
- 1 milyon rubldan yuxarı investisiya gəliri üçün 13% vergi. Aviaşirkətlər və turizm sektorundakı şirkətlər üçün də əlavə dəstəklər verilir.

Mayın 3-də KİV-lər kiçik biznesə dəstək üçün indiyə qədər 20 milyard ABŞ dolları ayrıldığını bildirdi.[76]

## UKRAYNA

Hökümət daşınmaz əmlaka və torpaqlara görə vergi ödəməsi tələbini dayandırdı, COVİD-19 karantinini hüquqi müqavilələr üçün bir fors-major halı olaraq təyin etdi, şirkətlərin vergi yoxlamalarını dayandırdı, biznes üçün güzəştli faiz dərəcələri ilə əlverişli bank kreditləri proqramını genişləndirdi, gəlir bəyannamələrinin təqdim edilməsini iyul ayına qədər dayandırdı, bəzi sahibkarlar üçün əməliyyatların qeydiyyatı qaydalarını yüngülləşdirdi və karantin səbəbindən əmlakından istifadə edə bilməyən vətəndaşların kirayə haqqını ödəməmək hüququnu təmin etdi. Sahibkarlar sosial təminat haqlarını ödəmək məcburiyyətindən də azad edilmişdir.

Martın 26-da dövlətə məxsus PrivatBank, may ayının sonuna qədər kiçik və orta sahibkarlar üçün "kredit tətili" elan etdi.[77]

Martın 30-da sahibkarlar mart və aprel ayları üçün sosial ödənişlər etmək məcburiyyətindən azad edildi. Vahid Sosial Töhfə (VST) vergisinin gecikmiş və ya natamam ödənilməsinə, habelə VST-da 1-31 mart və 1 aprel-30 aprel 2020 tarixləri arasında gec hesabat verilməsinə görə heç bir cəza tətbiq edilmir. Hökumət əlverişli

[76] https://www.nytimes.com/2020/05/03/world/europe/russia-coronavirus-small-business.html?campaign_id=2&emc=edit_th_200504&instance_id=18184&nl=todaysheadlines&regi_id=30595021
[77] www.sme.gov.ua

kreditlərin əhatə dairəsini genişləndirdi (2020-ci ilin fevral ayında başlayaraq): kreditin maksimal məbləği 3 milyon Ukrayna qrivini səviyyəsinə qədər artırıldı (təxminən 100 000 ABŞ dolları).

## POLŞA

Martın 10-dan etibarən Polşa aşağı faizli kreditlər və zəmanətlər hesabına müəssisələrin maliyyə likvidliyini dəstəkləmək üçün bir sıra tədbirlər tətbiq etdi. Bunlara daxildir[78]:

- Kredit zəmanətləri: Zəmanətlər kredit dəyərinin 80%-ni təşkil edəcəkdir. Bu cür zəmanətlər üzrə komissiya haqqının indiki səviyyə olan 0,5%-dən 0%-ə endirilməsi qərara alındı;
- Dövlət İnkişaf Bankından ayrılan kreditlər;
- Bank sistemi: Kiçik və orta sahibkarlıq subyektlərinə kredit təminatını 40 milyard Polşa zlotı artıra biləcək. Maliyyə Nazirliyi bunun 2,5 il ərzində ÜDM-in 0.5% artması ilə nəticələnə biləcəyini təxmin edir;
- Vergilər: COVİD-19 səbəbindən vergilərin vaxtında ödənilməsi ilə bağlı problemlərlə üzləşən sahibkarlar vergi ödəmələrini hissə-hissə ödəyə və ya vergi borclarının ləğvi və vergi ödəməsinin təxirə salınması üçün müraciət edə bilərlər;
- Sosial təminat fəaliyyətləri: Əgər COVİD-19 səbəbi ilə sahibkarlar sosial ödənişlərin ödənilməsi ilə bağlı problemlərlə üzləşsələr, fevral ayından aprel ayına qədər olan müddət üçün 3 aylıq sosial sığorta haqlarının təxirə salınması üçün müraciət edə bilərlər. Bu qayda dövriyyəsi azı 15% azalan şirkətlərə şamil edilir;

[78] https://www.biznes.gov.pl/pl/firma/sprawy-urzedowe/chce-przestrzegac-przepisow-szczegolnych/koronawirus-szczegolne-rozwiazania-zwiazane-z-zapobieganiem-przeciwdzialaniem-i-zwalczaniem-covid-19; https://www.gov.pl/web/finanse/wsparcie-dla-przedsiebiorcow-w-zwiazku-z-koronawirusem ; https://www.gov.pl/web/finanse/ministerstwo-finansow-z-pomoca-dla-msp; https://www.gov.pl/web/finanse/znosimy-bufor-ryzyka-systemowego-to-korzysc-dla-msp; https://www.zus.pl/o-zus/aktualnosci/-/publisher/aktualnosc/1/uproszczony-wniosek-o-odroczenie-terminu-platnosci-skladek_zawieszenie-splaty-umowy-o-rozlozenie-zadluzenia-na-raty_-zawieszenie-splaty-umowy-o-odroczeniu-terminu-platnosci-skladek-na-3-miesiace/2548485

- Məsafədən çalışma: İşəgötürən işçilərə (əmək müqaviləsi əsasında) müəyyən müddətə uzaqdan işləməyi tapşıra bilər;
- 1 aprel tarixindən etibarən aşağıdakı tədbirlər (Böhran Əleyhinə Qalxan) ÜDM-nin ən azı 10%-ni təşkil etmişdir[79];
- Sosial təminat fəaliyyətləri: Üç ay (mart-may) üçün sahibkarlıq subyektləri və fərdi sahibkarlar üçün sosial sığorta haqlarından azad olunma;
- Maliyyə dəstəyi: pandemiya səbəbindən fəaliyyəti dayanmış fərdi sahibkarlar və podratçılar 2080 Polşa zlotı həcmində (minimum əmək haqqının 80%-i) maddi dəstək üçün müraciət edə bilər;
- Vergi güzəştləri və ödəmələrin təxirə salınması;
- Zəmanətli İşçi Müavinətləri Fondu: COVİD-19 səbəbindən çətin vəziyyətdə qalan işəgötürənlər, Zəmanətli İşçi Müavinətləri Fondundan işçilərin (əmək müqaviləsi üzrə) orta əmək haqqının 40 faizinə qədər yardım ala bilərlər. Maliyyələşdirmə, 1 yanvar tarixindən sonrakı iki ay ərzində dövriyyəsi 15%-dən çox və ya 1 yanvardan bəri hər hansı ayda dövriyyəsi 25%-dən çox azalan şirkətlərə şamil olunur.

8 apreldə hökumət cari vəziyyətdə işdən çıxarılan işçilərin sayını azaltmaq məqsədilə şirkətlərə 100 milyard Polşa zlotı (22 milyard Avro və ya ÜDM-in 4.5%-i) maliyyə dəstəyini başlatdı. Dəstək, kiçik və orta müəssisələrə (zərfin 50%), mikro müəssisələrə (25%) və iri şirkətlərə (25%) 3 illik sıfır faizli kreditlərdən ibarət olacaqdır. Kredit alanlar kredit müddətində işçilərini saxlasalar, ümumi kreditlərin 60% -i qrant şəklində verilə bilər (KOS və mikro müəssisələr üçün 75%-ə qədər).

Aprelin sonlarında Avropa Komissiyası Polşa hakimiyyət orqanlarının sahibkarlar üçün böhran əleyhinə paketi çərçivəsində şirkətlərə 7.8 milyard avro məbləğində dövlət yardımı göstərməsinə razılıq verdi. Mikro müəssisələr, KOS-lar, eləcə də böhranla üzləşən iri şirkətlər birbaşa qrantlar, vergi güzəştləri, vergi ödəmələrinin təxirə salınması və ya işçilər üçün kompensasiya ödənişlərindən faydalana biləcəklər.

[79] https://www.gov.pl/web/rozwoj/pakiet-dot-tarczy-antykryzysowej-wszedl-w-zycie; https://pfr.pl/dam/pfr/documents/tarcza-antykryzysowa/PFR-Przewodnik-Antykryzysowy-dla-Przedsiebiorcow.pdf

# PANDEMİYA DÖVRÜNDƏ ŞƏRQ TƏRƏFDAŞLIĞI ÖLKƏLƏRİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞA DƏSTƏK[80]

## BELARUS

Belarusun pandemiyanın əhalinin sağlamlığı ilə bağlı riskləri necə qiymətləndirməsindən asılı olmayaraq, hökumət, böhranın iqtisadi sarsıntılarını yaxşı anlayır. Aprel ayının sonunda hökumət həm birbaşa, həm də dolayı ümumi dəstək paketinin 5-6 milyard Belarus rubl (2-2.5 milyard ABŞ dolları, illik ÜDM-nin 3-4%-i) həcmində olacağını açıqladı.

Pandemiya səbəbindən zərər görmüş iqtisadiyyatı dəstəkləmək üçün 24 apreldə qəbul edilmiş fərmanda ən çox zərər görmüş sahələrə yönəldilmiş tədbirlər planı elan olundu: xüsusən vergi tətilləri və hissə-hissə ödəmə, icarə haqqı tətili və bələdiyyə orqanlarına əmlak vergisini azaltma imkanı və dövlət qurumları tərəfindən pərakəndə və ictimai iaşə obyektlərinə ciddi nəzarət tədbirləri bura daxildir.

Dövlət satınalmaları prosedurları da müvəqqəti olaraq sadələşdirildi. Belarus, həmçinin xaricdən qayıda bilməyən və ya özünütəcrid şərtlərində işləyə bilməyənlərin işlərini itirməmək hüququna sahib olduqlarını və maaşlarının ən azı üçdə ikisini almaq hüququna sahib olduqlarını qərara aldı. Üstəlik, Milli Bank kommersiya banklarından gəlirləri pandemiyaya görə azalan vətəndaşlar üçün kredit və faiz ödəmələrini təxirə salmağını istədi. Müəyyən prudensial tələbləri rahatlaşdırdı və 22 apreldə kapitalın qorunması buferinin dəyərini 2 faiz bəndi azaltdı və likvidlik dərəcəsini 100% -dən 80% -ə endirdi.

Qiymət artımına gəlincə, Nazirlər Kabinetinin mal və xidmət qiymətlərinin aylıq 0,5%-dən yuxarı qaldırılmasının qarşısını alan ilkin qərarı ləğv edildi. Antiinhisar Tənzimləmə və Ticarət Nazirliyi, aprelin 15-də 26 məhsulun (əsasən ərzaq və sanitariya məhsullarına) qiymətlərinin dövlət tərəfindən tənzimləməsinə imkan verəcək qərar qəbul etdi.

---

[80] http://www.oecd.org/coronavirus/policy-responses/covid-19-crisis-response-in-eu-eastern-partner-countries-7759afa3/

BMTİP (BMT İnkişaf Proqamı) ölkəyə kömək etmək üçün dəstək mexanizmini işə saldı. Dövlət rəsmiləri, beynəlxalq kredit təşkilatları, xüsusən də BVF, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Avropa İnvestisiya Bankı və Çin İnkişaf Bankı ilə təxminən 2-2,5 milyard ABŞ dolları arasında maliyyə dəstəyi mövzusunda müzakirələr aparır.

## GÜRCÜSTAN

Hökumət pandemiyanın iqtisadiyyata vurduğu zərərin aradan qaldırılması məqsədilə 3.5 milyard gürcü larisi (təqribən 1.1 milyard ABŞ dolları) həcmində maliyyə vəsaiti ayırdı. Beynəlxalq partnyorlar da öz növbəsində, Gürcüstana əlavə 3 milyard ABŞ dolları məbləğində dəstək vermişlər.

Mərkəzi bank likvidliyin artırılması üçün tədbirlər həyata keçirdi, kommersiya bankları borcalanlara kredit ödənişlərinin üç aya qədər təxirə salınmasına və kredit ödəmələrində çətinliklə üzləşən iş adamları və fiziki şəxslər üçün kreditlərə yenidən baxılmasına qərar verdilər. İnfrastruktur layihələrinə ilin sonunadək əlavə 300 milyon gürcü larisi (107 milyon ABŞ dolları) həcmində investisiya qoyulacaqdır. Üstəlik, turizm sektoru ilə məşğul olan müəssisələrin əmlak və gəlir vergisi ödəmələri təxirə salınıb, altı ay ərzində bank kredit faizlərinin 80%-i kiçik otellərə subsidiya şəklində verilib. Əlavə tədbirlərə kommunal xərclər və ərzaq qiymətlərinə subsidiyalar, aztəminatlı ailələr və həssas qruplar üçün artırılan müavinətləri aid etmək olar. 24 apreldə Gürcüstan hökuməti, sosial dəstək (1.04 milyard gürcü larisi), iqtisadi böyüməni (2.11 milyard gürcü larisi) stimullaşdırmaq və pandemiya ilə mübarizə üçün səhiyyə sistemini (350 milyon gürcü larisi) gücləndirməyə yönəlmiş yeni bir böhran əleyhinə paket təqdim etdi. Tədbirlərə iş yerlərini itirmiş işçilərə kömək etmək, işəgötürənlərə iş yerlərinin saxlanması üçün dövlət subsidiyaları və fərdi sahibkarlara birdəfəlik ödəmələr daxildir. Həssas qruplar üçün əlavə dəstək veriləcək və pensiyalar inflyasiya səviyyəsindən az olmayaraq artırılmışdır. Üstəlik, müəssisələr kredit zəmanəti, birgə maliyyələşdirmə və mikro qrant sistemindən faydalanacaq, bundan əlavə aqrokredit proqramına vəsait ayrılacaqdır. Fiziki və hüquqi şəxslər üçün 2012-ci ildən bəri yığılmış borclar silinəcək və aqrar sektorda çalışanlar 2020-ci ildə irriqasiya vergisindən azad edilmişdir. Özəl sektorun stimullaşdırılması ilə bağlı əlavə 1.5 milyard ABŞ dollar həcmində maliyyə yardımına çıxış imkanı verən yeni bir dəstək paketi də gözlənilir.

# MOLDOVA

Pandemiyanın təsirini aradan qaldırmaq üçün bir sıra tədbirlərin maliyyələşdirilməsi üçün hökumət 2020-ci il büdcə qanununda dəyişiklik etdi. Dövlət rəsmiləri, iqtisadiyyat və biznesi dəstəkləmək üçün 2,1 milyard ley (təqribən 120 milyon ABŞ dolları), işsizlik müavinətləri üçün 180 milyon ley (10 milyon ABŞ dolları) daxil olmaqla sosial sığortaya 1.06 milyard (59 milyon ABŞ dolları) ley ayrılacağını açıqladılar.

Nağd pul problemini aradan qaldırmaqda sahibkarlara kömək etmək üçün aşağıdakı tədbirlər görülmüşdür:

- Dövlət müəssisələri istisna olmaqla bəzi müəssisələr üçün 2019-cu il üçün fərdi maliyyə hesabatlarının audit öhdəliyinin dayandırılması;
- Hüquqi şəxslərin gəlir vergisinin ödənilməsi üçün son tarixin 25 iyun tarixinə təxirə salınması;
- İyunun 1-dək bütün yoxlamalara moratoriumun tətbiqi;
- 1 may tarixinə ərzaq və yaşayış sektoru üçün ƏDV-nin 20%-dən 15%-ə endirilməsi;
- Fövqəladə hallar fonduna (25.2 milyon ABŞ dolları) və ipoteka təminatı proqramına dövlət büdcəsindən ayırmaların 452 milyon ley həcmində artırılması.

Bundan əlavə, 23 apreldə, müəssisələrin 2020-ci ilin sonunadək kredit əldə etmələrini asanlaşdıran Faiz Qrant Proqramı və 1 milyard ley (56 milyon ABŞ dolları) məbləğində ƏDV Geri Qaytarılması Proqramı həyata keçirilməsini nəzərdə tutan qanun layihəsi qəbul edildi. Sahibkarları dəstəkləmək üçün 100 milyon ley (təxminən 5.6 milyon ABŞ dolları) qədər vəsait ayrılacaqdır: qadın sahibkarların maliyyələşdirilməsi üçün 165,000 ilə 1.6 milyon ley (müvafiq olaraq 9.2 min və 89 min ABŞ dolları) həcmində qrantlar nəzərdə tutulmuşdur.

Turizm və kənd təsərrüfatı sektorları üçün xüsusi dəstək tədbirləri müzakirə olunur.

Hökumət fəaliyyətlərini dayandıran müəssisələrə (tam və ya qismən) fərdi gəlir vergiləri və sosial təminat haqlarını 100%-ə qədər geri qaytarmaqla da kömək edəcəkdir. Hakimiyyət orqanlarının qərarı ilə fəaliyyətlərini dayandırmalı olanlara gəlir vergisi, sosial təminat və səhiyyə fəaliyyətləri və digər məcburi dövlət ödəmələrinin 100%-i miqdarında subsidiya veriləcəkdir. Ən azı doqquz ay bir müəssisədə işləyən və işlərini itirmiş şəxslərə son əmək haqqının 60-80%-i ödənilir. Ümumilikdə, işsizlik fondunun həcmi təqribən altı qat artırıldı. Banklar həmçinin 30 iyun tarixinə qədər

ödəmə müddətlərinin və/və ya kreditlər üzrə ödəniləcək borcların təxirə salınmasına təşviq olundu.

Likvidlik şərtlərini yüngülləşdirmək və maliyyə dayanıqlığını artırmaq üçün Moldova Milli Bankı əsas qısamüddətli pul siyasəti əməliyyatlarına tətbiq olunan baza dərəcəsini illik 3,25%-ə endirdi; 16 aprel-15 may 2020-ci il tarixləri üçün yerli valyutada və konvertasiya olunmayan valyutada tələb olunan ehtiyat nisbətini 34%-ə endirdi; və sərbəst dönərli valyutalarda tələb olunan ehtiyatların nisbətini 21%-ə çatdırdı.

Martın 4-ə olan məlumata görə, "bir gecəlik" kreditləri və depozitlər üzrə faiz dərəcələri illik 6,25% və 0,25%-ə endirilib. Moldova Milli Bankı, həddindən artıq məzənnə dəyişkənliyinə qarşı müdaxilə etməyə hazır olduğunu bildirdi.